Bülleten No: 33 / sentyabr 2015

Elektron Hökumət Portalı

your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

SENTYABR 2015

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



ISO 9001 SGS SYSTEM CERTIFICATION

ISO 27001 SGS SYSTEM CERTIFICATION

UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# Prezident İlham Əliyev "Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında" fərman imzalayıb



**Fərmanda bəzi dövlət qurumlarının müasir texnoloji yeniliklərdən istifadə etmədən, əhaliyə xidmətlərin göstərilməsi qaydalarını təkmilləşdirmədən, şəffaflığı təmin etmədən fəaliyyət göstərdiyi qeyd edilir. Bildirilir ki, mənzillərdə, fərdi yaşayış evlərində və digər yaşayış sahələrində qeydiyyatda olan şəxslərin uçotunu həyata keçirən mənzil-kommunal istismar sahələrində informasiyanın toplanması, sistemləşdirilməsi, saxlanması və arxivləşdirilməsi kağız daşıyıcılar üzərində aparılır, məlumatların yenilənməsi qeyri-mütəmadi və sistemsiz şəkildə həyata keçirilir, elektron vasitələrdən istifadə edilmir.**

Yeni Fərmana uyğun olaraq, yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışın "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin (İAMAS) və digər informasiya sistemlərinin məlumatlarından istifadə edilməklə elektron qaydada tərtib edilməsi, arayışın vətəndaşların şəxsiyyət vəsiqəsi əsasında, əlavə heç bir sənəd tələb edilmədən hazırlanması və vətəndaşın müraciət etdiyi gün təxirə salınmadan verilməsi təmin edilməlidir.

Bununla da yeni Fərmana əsasən elektron arayışların hüquqi qüvvəsi artacaq. Yaşayış yeri üzrə arayış almaq üçün əvvəllər vətəndaşlar "MİS"lərə getməliydilərsə, indi ASAN xidmətdə, yaxud bu xidmətin tətbiq etdiyi bir informasiya sisteminə daxil olub, konkret yaşayış yeri üzrə şəxsiyyət vəsiqəsində göstərilən məlumatları daxil etməklə yaşayış yeri üzrə arayışı əldə edə biləcəklər. Yeni Fərman, həmçinin, informasiya sistemlərindən çıxarılan məlumatların həqiqiliyini təsdiq edir.

Elektron xidmətlər müasir dövrdə ictimai həyatın bütün sahələrinin, eləcə də iqtisadiyyatın və sahibkarlığın inkişafında mühüm rol oynayır. Yeni fərmana uyğun olaraq sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xüsusi razılıq (lisenziya), sertifikat, şəhadətnamə və digər sənədlərin də elektron qaydada verilməsi reallaşdırılacaq. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə xüsusi razılıq (lisenziya), sertifikat və digər sənədlərin verilməsi prosedurlarının elektronlaşdırılması sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən işlərin səmərəliliyini daha da artıracaq.

Fərmanda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan xüsusi razılıq (lisenziya), sertifikat, şəhadətnamə və digər sənədlərin elektron qaydada verilməsini təmin etmək məqsədilə İqtisadiyyat və Sənaye Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə "Elektron lisenziya" portalının yaradılması tapşırılıb.

Fərmanda öz əksini tapan digər məsələ isə taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılığın (lisenziya) və taksi minik avtomobilləri ilə sərnişin daşınmasını həyata keçirən sadələşdirilmiş vergi ödəyicilərinə məxsus nəqliyyat vasitəsinə "Fərqlənmə nişanı"nın verilməsinin ASAN xidmətə həvalə olunmasıdır. Artıq müəyyən prosedurlar həyata keçiriləndən sonra taksi fəaliyyəti ilə məşğul olanlar, eləcə də aylıq fərqlənmə nişanı almaq istəyənlər ASAN xidmətə müraciət edərək istəklərini daha rahat və qısa müddətdə həyata keçirə biləcəklər. Bundan əvvəl isə bəzi məsələlər həllini tapmalıdır və ölkə başçısı imzaladığı sənədlə dövlət qurumlarının qarşısında müvafiq tapşırıqlar qoyub. Bu tapşırıqlardan biri Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə aiddir. Komitə yaxın gələcəkdə taksi fəaliyyəti ilə bağlı standartları müəyyənləşdirməli və təsdiq etməlidir. Digər məsələ isə Nəqliyyat Nazirliyinin lazım olan informasiya bazasının ASAN xidmətə inteqrasiya etməsi ilə bağlıdır.

Fərmanda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məlum xidmətlərin göstərilməsində mövcud olan bütün neqativ halların aradan qaldırılmasına gətirib çıxaracaq.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**Nazirlər Kabineti "Elektron Hökumət" portalına qoşulmalı informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron Hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" qərara dəyişiklik edib.**

"Elektron Hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron Hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli qərarında dəyişikliklər edilməsi barədə "Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 fevral tarixli 477 nömrəli Fərmanının 4.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR**:

www.e-gov.az

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron Hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 2.7-ci və 14.3-cü bəndlər **əlavə edilsin**:

2.7. "Elektron məhkəmə" informasiya sistemi

14.3. Müavinət alan məcburi köçkünlərin adlı siyahıdan ibarət informasiya ehtiyatı

**2.** 6.1-ci bənd aşağıdakı **redaksiyada verilsin**:

6.1. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş informasiya sistemi

**3.** 6.2 - 6.4-cü bəndlər **ləğv edilsin**.

**4.** 32-ci hissədə və 32.1-ci bənddə "Bakıelektrikşəbəkə" sözü "Azərişıq" sözü ilə **əvəz edilsin**.

**5.** Aşağıdakı məzmunda 34 - 38-ci hissələr **əlavə edilsin**:

***34. Müdafiə Nazirliyi üzrə***

34.1. Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrinin vahid məlumat sistemi

***35. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası üzrə***

35.1. "Tələbə-məzun" dövlət elektron məlumat sistemi

***36. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti üzrə***

36.1. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Vahid elektron informasiya sistemi

***37. Mərkəzi Bank üzrə***

37.1. Mərkəzi Bankın Mərkəzləşdirilmiş Kredit Reyestri

***38. Yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri üzrə***

38.1. Ailə tərkibi və təsərrüfatı barədə məlumatlar

38.2. Qəyyumluqda (himayədə) olan uşaqlar barədə məlumatlar

*28 Avgust 2015*

*№ 289 Bakı şəhəri, 24 avqust 2015-ci il*

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

# E-viza almaq üçün qaydalar təsdiqləndi

## Azərbaycana gələn turistlərin viza almaq hüquqi ilə bağlı qayda təsdiq olunub.

**Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, Nazirlər Kabinetinin 29 iyun 2015-ci il tarixli, 247 nömrəli qərarı ilə "Turistlərə elektron viza almaq hüququnu əldə etmək üçün Azərbaycan Respublikasında fəaliyyət göstərən turizm şirkətlərinin akkreditasiyadan keçməsi Qaydası" təsdiq edilib.**




Bu qayda Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 38.7-ci maddəsinə uyğun olaraq hazırlanıb və turistlərə elektron viza hüququnu əldə etmək üçün Azərbaycanda fəaliyyət göstərən turizm şirkətlərinin Mədəniyyət və Turizm Nazirliyində akkreditasiyadan keçməsi qaydasını müəyyən edir.

Qeyd edək ki, "Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirilməsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 noyabr 2012-ci il tarixli, 2577 nömrəli Sərəncamının icrasının təmin edilməsi məqsədilə 2013-cü ilin 15 mart tarixindən Azərbaycana viza tələb olunan ölkələrdən turizm məqsədilə gələn xarici turistlərə elektron turist vizalarının verilməsi tətbiq edilir.

Mədəniyyət və Turizm Nazirliyi ilkin olaraq, əsasən gəlmə turizmlə məşğul olan 65 turizm şirkətinə sözügedən bu sistemdən istifadə edərək elektron turist vizası almaq hüququ verib. Hazırda ilkin olaraq elektron turist viza sistemindən istifadə etmək həvalə olunan turizm şirkətləri "Turistlərə elektron viza almaq hüququnu əldə etmək üçün Azərbaycanda fəaliyyət göstərən turizm şirkətlərinin akkreditasiyadan keçməsi Qaydası"na uyğun olaraq akkreditasiyadan keçirilir.

Bununla yanaşı, Mədəniyyət və Turizm Nazirliyindən xüsusi razılıq (lisenziya) alan və qeyd olunan qaydalarda göstərilən tələblərə uyğun gələn istənilən turizm şirkəti akkreditasiyadan keçmək üçün Nazirliyə müraciət edə bilər.

Xatırladaq ki, elektron turist vizaları müraciət edildikdən ən geci 10 gün müddətinə rəsmiləşdirilir. Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq, Mədəniyyət və Turizm Nazirliyi və Xarici İşlər Nazirliyi tərəfindən viza verilməsi prosedurunun 10 gündən 5 günə salınması ilə bağlı birgə fəaliyyət həyata keçirilir.

# Avqust ayı ərzində “Elektron Hökumət” portalındakı xidmətlərindən ən çox istifadə olunmuş 5 qurum

**“Elektron Hökumət” - informasiyanın elektron emalı, ötürülməsi və paylaşılması üçün əvəzedilməz vasitədir. “Elektron Hökumət” ənənəvi idarəçilik metodlarının davamı və ya analoqu deyil, dövlət xidmətlərinin keyfiyyətinin artırılması, təkmilləşdirilməsi məqsədilə müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə qarşılıqlı münasibətlərin təşkilinin yeni metodudur.**

Dünyada informasiya texnologiyalarının geniş tətbiq olunduğu bir zamanda ölkəmizdə də elektron hökumətin və elektron xidmətlərin yaradılması və elektron sənəd mübadiləsinin tətbiqi çox aktual və praktik mahiyyət daşıyır.

Məlum olduğu kimi, "Elektron Hökumət" portalı 2012-ci ilin aprel ayından istifadəyə verilib və həmin vaxt portala cəmi 16 dövlət qurumu üzrə 50-ə yaxın elektron xidmət inteqrasiya olunmuşdu. Hazırda isə portal üzərindən xidmət göstərən qurumların sayı 45, təqdim edilən xidmətlərin sayı isə 409-dur. Portaldakı e-xidmətlərdən istifadə sayı da dinamik şəkildə artmaqdadır. Belə ki, 1 avqust 2015-ci il tarixə portalın istifadəçilərinin sayı 2,43 milyon nəfərdən çox olub və onlar 15,4 milyon dəfədən çox e-xidmətlərdən istifadə etmişlər. Təbii ki, daha çox sosial tələbat olan, ictimai xarakter daşıyan və istifadəsi asan olan elektron xidmətlərdən istifadə edənlərin sayı daha çox olur.

Cari ilin avqust ayı ərzində "Elektron Hökumət" portalındakı elektron xidmətlərindən ən çox istifadə olunmuş 5 qurum aşağıdakılardır:

1. **Tələbə Qəbulu üzrə Dövlət Komissiyası**
2. **Rabitə və Yüksək Texnologiyalar Nazirliyi**
3. **Dövlət Sosial Müdafiə Fondu**
4. **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
5. **“Elektron Hökumət” portalının elektron arayışlar xidməti**

“Elektron Hökumət” portalı tərəfindən təqdim olunan statistikaya əsasən, avqust ayı ərzində ən çox Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının xidmətlərindən istifadə olunub. Belə ki, qurumun elektron xidmətlərindən 524303 dəfə istifadə edilib. Qeyd edək ki, TQDK-nın ay ərzində ən çox istifadə olunan xidməti "Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu"dur.

Xidmətlərinin istifadə statistikasına görə ikinci olan qurum Rabitə və Yüksək Texnologiyalar Nazirliyidir. Nazirliyin ən çox müraciət edilən e-xidmətləri “Telefon nömrəsi üzrə axtarış”, “Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi”, “Mobil cihazların qeydiyyatdan keçirilməsi”, “Mobil cihazların IMEI qeydiyyatının yoxlanılması”, “Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi” və s. xidmətlərdir. Avqust ayında nazirliyin xidmətlərindən istifadə sayı 277996-a çatıb.

Dövlət Sosial Müdafiə Fondunun 12 sosial xidməti “Elektron Hökumət” portalına inteqrasiya edilib. Bu xidmətlər vasitəsilə heç yerə getmədən, istənilən vaxt hesabınıza yatırılan dövlət sosial siğorta haqqı barədə məlumat əldə etmək, iş-lədiyiniz illər üzrə pensiya kapitalı barədə məlumat əldə etmək mümkündür. Bundan başqa sosial tələbat yüksək olan “Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi”, “Sığortaolunanlara məlumatın verilməsi”, “Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi”, “Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi”, “Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi” xidmətlərindən istifadə edə, həmçinin, DSMF-nin e-xidmətlərindən faydalanaraq məcburi dövlət sosial sığorta vəsaitini portal üzərindən onlayn şəkildə ödəyə bilərsiniz. Qeyd edək ki, DSMF-nin sosial tələbat kifayət qədər yüksək olan bu və digər xidmətlərindən avqust ayı ərzində 215419 dəfə istifadə edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sosial xidmətlərin elektronlaşdırılması və vətəndaşlara real elektron xidmət təqdim edilməsinə göstərdiyi xüsusi diqqət sayəsində demək olar ki, portaldakı e-xidmətlərdən istifadə statistikasında mütəmadi olaraq ön yerlərdə olur. Avqust ayının statistikasına əsasən ƏƏSMN-nin xidmətlərindən 151946 dəfə istifadə edilib. ƏƏSMN tərəfindən təqdim olunan "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işə götürənə məlumatın verilməsi" xidməti daha çox müraciət edilən xidmətlərdəndir.

Məlum olduğu kimi, tez-tez vətəndaşlarımızdan müxtəlif qurumlar tərəfindən çoxlu sayda arayışlar və sənədlər tələb olunur. Bu arayışları isə əldə etmək və adiyyatı quruma təqdim etmək insanlardan vaxt və enerji tələb edir. Eyni zamanda bu proses müxtəlif neqativ hallara və sründürməçiliyə gətirib çıxarır. Portalda cəmi bir ildir yaradılan "Elektron arayışlar" xidməti vasitəsilə artıq vətəndaşlar 9 növ arayışları dövlət qurumuna getmədən “Elektron Hökumət” portalından asanlıqla əldə edə bilirlər. Qeyd edək ki, hazırda 20-ə yaxın bank və bir neçə kredit təşkilatları bu xidmətdən faydalanaraq kreditləşmə əməliyyatlarını həyata keçirirlər. Vətəndaşlar portal üzərindən e-arayışları formalaşdıraraq banklara və kredit təşkilatlarına təqdim edərək, vaxt itirmədən rahat və şəffaf şəkildə istəklərinə nail olurlar. Qeyd olunan üstünlüklərinə görə təkcə avqust ayı ərzində “Elektron Hökumət” portalının təqdim etdiyi elektron arayışlardan 49886 dəfə istifadə olunub. Kifayət qədər böyük olan bu rəqəm elektron arayışlara sosial tələbatın yüksək olduğundan xəbər verir ki, bu da elektron arayışların çeşidinin artırılması və tətbiq sahələrinin genişləndirilməsi üçün lazımi tədbirlərin görülməsini zəruri edir.

www.e-gov.az

# Açıq Hökumət Məlumatları portalına daha dörd məlumat bazası əlavə olundu

**Dünya təcrübəsinə nəzər saldıqda elektronlaşmanın yeni mərhələsi kimi hökumət məlumatlarının açıq edilməsi prosesinin artıq öz bəhrəsini verdiyini görmək mümkündür. Belə ki, açıq edilən ictimai məlumatlar əsasında hazırlanan mobil və veb tərtibatlar vətəndaşların gündəlik qayğılarını yüngülləşdirməklə yanaşı, eləcə də yüksək iqtisadi gəlir gətirir.**

Cari ildən etibarən ölkəmizdə də "Elektron Hökumət" portalının inkişaf çərçivəsi genişləndirilmiş, ölkədə "E-Gov 3.0" mərhələsinə başlanılmışdır. Belə ki, yanvar ayında "data.gov.az" açıq məlumatlar portalı vətəndaşların istifadəsinə verilmişdir və hazırda data.gov.az portalında 25 adda məlumat bazası istifadəyə hazır edilmişdir. Həmçinin, tərəfimizdən açıq məlumatlar əsasında mobil və veb tərtibatların yazılması üzrə müsabiqə elan edilmiş və bir çox universitetlərdə və startupçılarla təşkil olunun toplantılarda bu sahə üzrə maarifləndirmə işləri aparılmışdır.

Bu günlərdə Mədəniyyət və Turizm Nazirliyinin daha 4 adda açıq məlumat bazaları portala inteqrasiya edildi:

- **İnternet saytın səhifəsinə interaktiv GoMap.Az xəritəsinin əlavə olunması**
- **Xəritəyə markerin əlavə edilməsi**
- **Xəritəyə bir neçə markerin əlavə edilməsi**
- **Xəritə üzərində kordinatlara görə ünvanın tapılması metodu**

Portalda açıq edilən hər bir məlumat bazası üzrə bütün cari informasiyalar və hər bir məlumat üzrə yaradıla biləcək mobil servislərin hazırlanma metodları barədə təlimatlar yerləşdirilmişdir. Sözügedən məlumat bazaları naviqator tipli mobil əlavələrin hazırlanması üçün zəruri informasiyaları əhatə edir.

Qeyd edək ki, hazırda açıq məlumatlar portalında Ədliyyə, Rabitə və Yüksək Texnologiyalar, Mədəniyyət və Turizm, Səhiyyə nazirliklərinin, Azərsu ASC-nin və Dövlət Gömrük Komitəsinin məlumatları yerləşdirilib. Apardığımız ilkin araşdırmalara görə əksər qurumların mülkiyyətində açıq edilməli məlumatlar vardır və həmin məlumatların proqram tərəfindən oxunaqlı formata gətirilərək portalda yerləşdirilməsi üçün lazımi işlər aparılır.

# "Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış" xidmətindən istifadə sayı artır

**Gündəlik həyatda tez-tez tələb olunan müxtəlif növ arayışların əldə olunmasına sərf etdiyimiz vaxt və enerji hamımıza məlumdur. Elə bu səbəbdən, artıq bir ildir ki, "Elektron Hökumət" portalı müxtəlif növ arayışların portal üzərindən formalaşdırılmasını, çap edilməsini, həmçinin, elektron şəkildə aidiyyatı quruma göndərilməni mümkün etmişdir.**

"Elektron Hökumət" portalı tərəfindən təqdim edilən "Elektron arayışlar" xidməti vətəndaşlar tərəfindən ən çox istifadə edilən xidmətlərdəndir. Bu da təsadüfi deyil, çünki hər bir addımda vətəndaşlardan müxtəlif növ arayışlar tələb olunur. Bu isə vətəndaşın əlavə vaxt itkisi, müxtəlif bürokratik, neqativ və sair problemlərlə qarşılaşması deməkdir.

Bu ilin aprel ayında MHM ilə TQDK-nın birgə səyləri nəticəsində "Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış" e-xidməti istifadəyə verilib və artıq vətəndaşlar təhsil aldıqları ali və orta ixtisas təhsili barədə e-arayışı "Elektron Hökumət" portalından asanlıqla əldə edə bilirlər. Vətəndaş portalda qeydiyyatdan keçərək bu e-xidmətə daxil olduqda avtomatik olaraq formalaşan e-arayışda aşağıdakı məlumatar öz əksini tapır:

- **Vətənadşın soyadı, adı və ata adı**
- **Vətəndaşın doğum tarixi və qəbul olduğu tədris ili**
- **Qəbul üçün əsas**
- **Təhsil müəssisəsinin adı**
- **Təhsilin dövlət hesabına və ya ödənişli əsaslarla olması barədə məlumat**
- **Təhsil səviyyəsi**
- **İxtisasın şifri, adı və təhsilalma forması**
- **Təhsil üzrə cari vəziyyət və s.**



Qeyd edirik ki, "Tələbə-məzun" dövlət elektron məlumat sistemində olan məlumatlar əsasən 1992-ci ildən hazıradək olan dövrü əhatə edir. TQDK tərəfindən elektron ərizə qəbulu 2008-ci ildən etibarən həyata keçirilir və həmin ildən başlayaraq, demək olar ki, bütün məlumatlar tam şəkildə FİN-ə (Fərdi İdentifikasiya Nömrəsi) uyğunlaşdırılıb. 2001-ci ildən 2008-ci ilə qədər dövr üzrə məlumatlar isə soyad, ad və ünvan üzrə Daxili İşlər Nazirliyinin "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat axtarış sistemi ilə üzləşdirilib və tapılan FİN-lər sistemə əlavə edilib. Buna görə də 1992-2008-ci illər üzrə FİN-ə görə bəzi məlumatlar tapılmaya bilər.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən təqdim olunan "Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış" xidmətindən avqust ayı ərzində 588 dəfə istifadə olunmuşdur.

# Mobil rabitə operatorlarının informasiya sistemlərinin "Elektron Hökumət" portalına qoşulması təmin olunmuşdur




Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22 may 2015-ci il tarixli 200 nömrəli qərarına əsasən "Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı tələb olunan şərtlərin təsdiq edilməsi haqqında" 2005-ci il 7 iyul tarixli 131 nömrəli qərara dəyişikliklər edimişdir. Belə ki, yeni qərar əsasında telefon nömrələrinin (Sim kartların) satış qaydalarında mühüm dəyişiklik edilmişdir. Tezliklə, yeni qərara uyğun olaraq nömrə satışı zamanı yol verilən bir çox pərakəndə proseslərin sistemləşdirilməsi, eyni zamanda, mövcud qüsurların aradan qaldırılması üzrə tədbirlər görüləcək və yaradılacaq texniki qaydalara uyğun abunəçi informasiya bazası əsasında sosial əhəmiyyətli elektron xidmətlərin hazırlanması mümkün olacaq.

Bununla bağlı olaraq, "Elektron Hökumət" portalının operatoru RYTN MHM-də "Azercell Telekom" MMC, Bakcell MMC və NarMobile MMC-nin nümayəndələri ilə görüş baş tutub. Görüşdə mobil nömrə satışının qərarda edilmiş dəyişikliklər üzrə yeni qaydalara uyğun təşkili ilə əlaqədar bir sıra texniki və prosedur məsələlər müzakirə edilmişdir. Görüş çərçivəsində mobil nömrələrin operatorun şəbəkəsində aktivləşdirilməsi ilə bağlı ərizəçiyə aid məlumatların fiziki və hüquqi şəxslər üçün "Elektron Hökumət" portalına qoşulmuş informasiya sistemləri vasitəsilə ilkin mənbədən identifikasiya edilərək operatorların və MHM-in vahid məlumat bazasına onlayn rejimdə elektron formada daxil edilməsinin təmin olunmasının texniki tərəfləri ətraflı müzakirə olunmuşdur.

Portal üzərindən təqdim olunacaq texniki dəstək və imkanlar barədə ətraflı müzakirə edilmişdir. Həmçinin, görüş əsnasında nömrə satışı üzrə cari biznes prosesləri nəzərdən keçirildi. Bu prosedurların yeni dəyişikliklərə uyğunlaşdırılması ilə əlaqədar tətbiq ediləcək texniki təfərrüatlar müzakirə edildi.

Qeyd edək ki, tezliklə, mobil nömrələrin satışı, nömrələrin digər operatora daşınması və nömrələrin addan-ada keçirilməsi prosesi tamamilə avtomatlaşdırılaraq "Elektron Hökumət" portalı üzərindən həyata keçiriləcək.

- *Mobil operatorlar üzrə abunəçi bazaları FİN-ə uyğunlaşdıqdan sonra "Elektron Hökumət" portalı üzərindən təqdim edilən sosial xidmətlərin çeşidi və keyfiyyəti artacaq;*
- *"Elektron Hökumət" portalı üzərindən qanunvericiliyə uyğun olaraq qurumlararası informasiya mübadiləsinin aparılması mümkün olacaq;*
- *"Elektron Hökumət" portalı üzərindən vətəndaşlara istənilən dövlət qurumlarının bildirişlərini (məhkəmə, şəxsiyyət vəsiqəsinin müddətinin bitməsi, banklar, kommunal borclar, rabitə borcları, cərimələr və s.) göndərmək mümkün olacaq;*
- *"Elektron Hökumət" portalı üzərindən formalaşan "Şəxsi kabinetlər"də abunəçinin mobil nömrələri barədə məlumatlar əks olunacaq;*
- *"Elektron Hökumət" portalında onlayn qeydiyyat zamanı mobil nömrənin istifadəçinin öz adına olmaması və ya qrammatik səhvlər səbəbindən yaran problem aradan qalxacaq;*

Artıq hər üç operatorun Elektron Hökumət portalına fiziki qoşulması başa çatdırılmışdır. Qoşulmalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron Hökumət" portalına qoşulması üçün Texniki Tələblər"-ə uyğun aparılmışdır. Hal hazırda qurumların mütəxəssisləri tərəfindən müxtəlif informasiya sistemləri arasında mübdilə olunacaq məlumatlar üçün servislərin hazırlanması və ötürülməsi istiqamətində işlər davam etdirilir.

# Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin informasiya sisteminin "Elektron Hökumət" portalına inteqrasiyası üzrə müzakirələr aparılıb

Bu gün Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin və RYTN MHM-nin nümayəndələri ilə birgə görüş keçirilib. Görüşdə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin informasiya sisteminin "Elektron Hökumət" portalına qoşulması və elektron xidmətlərin təşkili haqqında hüquqi, texniki və proqram məsələləri müzakirə olunub.

Görüş zamanı Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarına əsasən təsdiq edilmiş elektron xidmətlər siyahısı üzrə "Alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətə xüsusi icazənin verilməsi üçün müraciətin və sənədlərin qəbulu" xidmətinin portal üzərindən "bir pəncərə" prinsipinə uyğun olaraq vətəndaşlara təqdim edilməsi üçün texniki məqamlar gözdən keçirildi. Sözügedən xidmətin Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş müvafiq texniki qaydalara uyğun hazırlanması üçün zəruri informasiya və portala qoşulma sxemi Agentliyin nümayəndələrinə təqdim edildi.

Qeyd edək ki, sözügedən xidmətin istifadəçilərə portal üzərindən çatdırılması bu sahədə qurulan yeni biznes sahələrinin işini sadələşdiriləcəkdir.

www.e-gov.az

# "Qaz abunəçiləri üzrə informasiya ehtiyatı"nın "Elektron Hökumət" portalına inteqrasiyası üçün SOCAR-la birgə müzakirə keçirildi

12 avqust 2015-ci il tarixdə "Elektron Hökumət" portalının operatoru - Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzində SOCAR İTRİ-nin əməkdaşları ilə görüş keçirilmişdir. Görüş zamanı

***- "Azəriqaz" İB-ə məxsus "Qaz abunəçiləri üzrə informasiya ehtiyatı"nın Dövlət Reyestrində qeydiyyata alınması;***

***- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli qərarının icrası ilə bağlı informasiya sisteminin portala inteqrasiyası;***

***- Portalın imkanlarından istifadə olunmaqla, informasiya mübadiləsi vasitəsilə "104" Zəng (Çağrı) Mərkəzinin işinin təkmilləşdirilməsi;***

***- Müvafiq elektron xidmətlərin təşkili, uyğun servislərin hazırlanması və sair məsələlər müzakirə edildi.***

Toplantının əsas məqsədi "Azəriqaz" İB-nin İnformasiya sisteminin portala qoşulması ilə ictimai tələbatın yüksək olduğu xidmətlərin elektronlaşdırılaraq "bir pəncərə" prinsipi üzrə "Elektron Hökumət" portalı üzərindən vətəndaşlara təqdim edilməsidir. Toplantı çərçivəsində zəruri sosial xidmətlərin elektronlaşdırılması, həmçinin, məlumat bazasının FİN-ə uyğunlaşdırılması məsələləri müzakirə edildi. Bu istiqamətdə portalın mövcud potensialları barədə ətraflı məlumat verildi.

Bundan başqa, yeni qaz abunəçilərinin sənədləşdirilməsi zamanı ünvan və adların, a.a. sistemə əl ilə daxil edildiyi və bununla əlaqədar bir çox mexaniki səhvlərin baş verdiyi qeyd olundu. Bu problemin aradan qaldırılması və İnformasiya sisteminin formalaşdırılmasının ilkin mənbədən aparılması məqsədilə portal üzərindən "Azəriqaz" İB-nə müvafiq servis ötürülməsi təklif edildi və prosesin texniki detalları birgə müzakirə edildi.

Qeyd olundu ki, "Azəriqaz" İB-nin mövcud abunəçi bazasında məlumatların ~70%-i FİN-ə uyğunlaşdırılıb. "Azəriqaz" İB-nin mülkiyyətində olan informasiya sistemlərində abunəçilərə dair fərdi məlumatların İAMAS informasiya sistemindəki məlumatlarla üzləşdirilərək FİN-ə uyğunlaşdırılması istiqamətində MHM-in öz köməyini əsirgəməyəcəyi bildirildi.

Sonra MHM-in "157" Zəng Mərkəzinin iş prinsipi SOCAR-ın əməkdaşlarına əyani nümayiş etdirildi və "Azəriqaz" İB-nin İnformasiya sisteminin portala qoşulmasından sonra "104" Zəng Mərkəzinin işinin analoji qaydada təkmilləşdirilməsinin mümkün olduğu bildirildi.

Müzakirələrin sonunda müvafiq informasiya sisteminin portala inteqrasiya edilməsi üçün tələb olunan serverlər və digər avadanlıqların texniki parametrləri SOCAR-ın əməkdaşlarına təqdim edildi. Hər iki qurum arasında davamlı əməkdaşlıq sayəsində qeyd olunan məsələlərin tezliklə reallaşdırılacağı vurğulandı və uğurlu əməkdaşlığın başlanması məqsədilə ikitərəfli müqavilə layihəsinin hazırlanması qərara alındı.

# "Elektron Hökumət" portalı valideynlərin də işini asanlaşdırır...

Yeni rəqəmsal metodların ənənəvi idarəçilik metodlarını əvəz etdiyi zamanda Respublikamızda uşaqlar və valideynlər üçün də səmərəli elektron mühit mövcuddur. Hazırki vaxtda elektron xidmətlərin inkişafı məhz yeni nəslin tələbləri əsasında aparılır. Evdəki 3 yaşlı uşaqdan başlayaraq, cəmiyyətin yaşca ən kiçik üzvlərinin elektron cihazlara və vasitələrə olan böyük marağını nəzərə alsaq, elektron transformasiya uşaqların perspektivindən inkişaf etdirilməlidir.

Bildiyiniz kimi, bu gün "Elektron Hökumət" portalı cəmiyyətin müxtəlif statuslu üzvlərinə elektron xidmət göstərən vahid xidmət məkanıdır. Portalda cəmiyyətin yaşca ən kiçik üzvləri ilə bağlı müxtəlif məzmunlu e-xidmətlər mövcuddur. Belə elektron xidmətlər vaxtaqənaət və əlavə enerji sərfinin qarşısını alaraq valideynlərə öz uşaqlarına daha çox qayğı göstərmək imkanı yaradır.

Beləki, portal üzərindən valideynlərə təqdim olunan xidmətlər doğumun qeydiyyatından tutmuş körpəyə adın seçilməsi zamanı adın mənasının araşdırılmasına qədər bütün imkanları onlayn olaraq əldə etmək imkanı verir. Uşaqların sağlam inkişafı üçün çox mühüm olan profilaktik peyvəndlər və dərman vasitələri barədə məlumatları valideynlər portal üzərindən öyrənə bilərlər. Həmçinin, övladlığa uşaq götürməyi qərara alan valideynlərə portal vasitəsilə aidiyyatı quruma elektron müraciət etmək imkanı verilir.

Hazırda, "Elektron Hökumət" portalı üzərindən xüsusilə körpə sahibi olan valideynlər üçün aşağıdakı e-xidmətlər təklif olunur:

- *Doğumun qeydiyyatı üçün elektron müraciət*
- *Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi*
- *"Doğum haqqında tibbi şəhadətnamə" elektron registrindən məlumatların verilməsi*
- *Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi*
- *İmmunoprofilaktika üzrə məlumatın verilməsi*
- *Profilaktik peyvəndlərin vaxtı barədə SMS vasitəsilə xəbərdarlıq verilməsi*
- *Dərman vasitələri haqqında məlumatın verilməsi*
- *Vətəndaşlara elektron sağlamlıq kartı üzrə məlumatların verilməsi*
- *Soyadın, adın və ata adının dəyişdirilməsi üçün elektron müraciət*
- *Övladlığa götürmək üçün elektron müraciət*
- *Ölkələrarası övladlığa götürmə üçün müraciətin və sənədlərin qəbulu*
- *Azərbaycan adları barədə məlumatın verilməsi*
- *Atalığı müəyyən etmək üçün elektron müraciət*

Bu gün portal üzərindən e-xidmətlərin istifadəsinə və daxil olan müraciətlərə nəzər saldıqda belə bir paradoks müşahidə edilməkdədir. Gənc valideynlər portal vasitəsilə uşaqlarını xidmətlə təmin etdikləri halda, əksər valideynlərin "Elektron Hökumət" portalı üzrə bələdçiləri məhz müasir komputer biliklərinə yiyələnmiş övladlarıdır. Bu prizmadan yanaşsaq görərik ki, elektron xidmət istifadəçilərinin əksəriyyəti məhz elə yeniliyə tez uyğunlaşan və gələcəyimiz olan uşaqlardır.

# Bu il "Elektron Hökumət" portalı üçün dinamik inkişaf ilidir




"Elektron Hökumət" portalı Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli Fərmanına uyğun olaraq modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) tərəfindən hazırlanıb. Portalın fəaliyyəti 2013-cü il fevralın 5-də Prezidentin Fərmanı ilə təsdiq edilmiş "Elektron Hökumət" portalı haqqında Əsasnamə ilə tənzimlənir. "Elektron Hökumət" portalının idarə olunması, fəaliyyətinin təşkili və inkişafı portalın operatoru kimi RYTN MHM tərəfindən icra olunur. Operatorun əməkdaşları "Elektron Hökumət" quruculuğu üzrə əldə edilmiş uğurlar və qarşıda duran prioritet məsələlər barədə AZƏRTAC-ın suallarını cavablandırıb.

**- "Elektron Hökumət" portalının inkişafı istiqamətində hansı tədbirlər həyata keçirilib?**

- 2015-ci il "Elektron Hökumət" portalı üçün dinamik inkişaf ilidir. Məlum olduğu kimi, "Elektron Hökumət" portalının fəaliyyəti birbaşa şəffaflıq, vətəndaş məmnuniyyəti və səmərəli idarəçilik prinsipləri üzərində qurulub və bütün bu prinsiplər üzrə tələblərin ödənilməsi üçün xüsusən bu il xeyli işlər görülüb.

Hazırda, portalda 409 e-xidmət vətəndaşların istifadəsindədir. Avqustun 1-nə olan məlumata görə, Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş 454 xidmətdən 335-i portala artıq inteqrasiya edilib və siyahıda əks olunan digər xidmətlərin elektron formada portala inteqrasiyası üçün operativ işlər davam etdirilir. Portalın istifadəçi sayı və e-xidmətlərdən istifadə sayı dinamik şəkildə artmaqdadır. Hazırda portalın istifadəçilərinin sayı 2,4 milyon nəfərdən çoxdur və onlar 15,5 milyon dəfədən çox e-xidmətlərdən istifadə üçün müraciət edib. Bu gün portala 80-dən artıq fiziki qoşulma var. Bunlardan 48-i dövlət qurumları, digərləri isə özəl sektorun nümayəndələri və banklardır. Qeyd edim ki, hazırki vaxtda "Elektron Hökumət" quruculuğunun məqsədyönlü inkişafı üçün təqdim olunan xidmətlərin kəmiyyəti deyil, keyfiyyəti daha çox maraq dairəmizdədir. Məlum olduğu kimi, 2015 il iyulun 14-də "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanıb. Bu dəyişiklik elektron sənədlərin hüquqi tərəflərini müəyyən etməklə, elektron sənədlərin tətbiq zəruriyyətini təsdiqləyir. Belə ki, müvafiq Fərman əsasında artıq bir ildən çoxdur ki, müxtəlif kağız üzərində təqdim olunan arayışların onlayn ekvivalentləri üzərində işləyirik. Bununla bağlı, portalda yeni bölmə "Elektron arayışlar" yaradılıb. Bu gün artıq Azərbaycan vətəndaşı iş yerindən, diplom haqqında, təhsili haqqında, kommunal borcun olmaması barədə və sair arayışlar üçün aidiyyati qurumlara mütləq müraciət etmək məcburiyyətində deyil. Vətəndaşlar bu xidməti xidmət məntəqələrinə şəxsən getməklə və elektron xidmətlər vasitəsilə online olaraq əldə edə bilərlər. Hazırda, bu sahədə də işlər davam etdirilir, tezliklə vətəndaşlar bir çox digər arayışları da portal üzərində formalaşdırmaq imkanı əldə edəcəklər.

Bu il elektron müraciətlər üzrə tələblər üzərində işlənilib, bir sıra e-xidmətlərin interfeysi yenilənib. Bununla yanaşı, portalın vətəndaş yönümlü servisləri təkmilləşdirilib, real vaxt rejimində istifadəçilərin müraciətlərinin cavablandırılması üçün "Online konsultasiya" servisi istifadəyə verilib.

Portalın çağrı mərkəzi - 157 xidməti yenidən qurulub və vətəndaşlarımızın istifadəsinə təqdim edilib. Həmçinin, bu ildən etibarən "Elektron Hökumət" portalının inkişaf çərçivəsi genişləndirilib, ölkədə "E-Gov 3.0" mərhələsinə başlanılıb. Belə ki, yanvar ayında "data.gov.az" açıq məlumatlar portalı vətəndaşların istifadəsinə verilib və hazırda data.gov.az portalında 5 dövlət qurumu tərəfindən 25 adda məlumat bazası istifadəyə açıq edilib. Hökumət məlumatlarının açıq edilməsində əsas rol həmişə olduğu kimi, xidmət təminatçılarının yəni dövlət orqanlarının üzərinə düşür. Bununla bağlı olaraq, qurumlar özləri hansı xidmətlərin açıq verilə biləcəyini müəyyənləşdirməli və onu portala təqdim etməlidirlər. Açıq hökumət məlumatları, həmçinin, proqram məhsulu yazanların "Elektron Hökumət" quruculuğuna dəvət edilməsi deməkdir. Bu həm dövlət tərəfindən müvafiq sahəyə özəl sektor vasitəsilə investisiyaların cəlb edilməsinə, özəl sektorun inkişafına, ən əsası isə müxtəlif çeşidli fərdyönümlü elektron xidmətlərin hazırlanmasına gətirib çıxaracaq.

**- Qurumlar arasında informasiya mübadiləsi prosesi necə təşkil olunur?**

- Portalın işinin məqsədyönlü inkişafı üçün diqqətdə olan əsas məsələlərdən biri qurumlar arasında informasiya mübadiləsi prosesinin düzgün təşkilidir. Bununla əlaqədar, dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrlərinin operatoru olaraq Məlumat Hesablama Mərkəzi dövlət informasiya ehtiyatlarının və sistemlərinin reyestrlərdə qeydiyyatını aparır və mütəmadi olaraq qurumların mülkiyyətində olan informasiya sistemlərinin monitorinqini həyata keçirir. Çünki, informasiya sistemlərinin nöqsansız işi bu gün və gələcəkdə təqdim olunacaq e-xidmətlərin keyfiyyəti deməkdir.

www.e-gov.az

Daha sonra, bu il informasiya sistemlərinin fərdi identifikasiya nömrəsinə (FİN) uyğunlaşdırılması, informasiya sistemlərinin vahid identifikator üzrə formalaşdırılması istiqamətində ciddi işlər görülüb, kommunal xidmət təqdim edən qurumlara bu sahədə köməklik göstərilib. Eləcə də, cari ilin yay aylarında mobil operatorların informasiya sistemlərinin portal üzərindən aparılması üzərində ciddi iş həyata keçirilib və tezliklə, mobil nömrələrin satışı, nömrələrin digər operatora daşınması və nömrələrin addan-ada keçirilməsi prosesi zamanı məlumatların ilkin mənbədən formalaşdırılması tamamilə "Elektron Hökumət" portalı üzərindən həyata keçiriləcək. Bu gün mobil operatorların informasiya sistemlərinin FİN-ə və digər identifikatorlara uyğun olmaması səbəbindən ünvanlı SMS göndərilməsində böyük çətinliklər var. İnformasiya sistemlərinin FİN-ə uyğunlaşdırlıması isə bizə elektron xidmətlərdən istifadə zamanı müxtəlif SMS xidmətlərdən ünvanlı istifadə üçün geniş imkanlar yaradacaq. Əminliklə deyə bilərəm ki, "Elektron Hökumət" portalının fəaliyyəti istifadəçi tələbatına uyğun şəkildə aparılır. Bunun üçün, sosial yönümlü xidmətlər göstərən xidmət təminatçıları ilə mütəmadi olaraq görüşlər və məsləhətləşmələr keçirilir. Xidmətlərin hazırlanması və istismarında innovativ yeniliklərin, yeni texnoloji üsulların tətbiqi təşviq edilir. Nümunə üçün, cari ildə bəzi İcra hakimiyyətləri ilə əməkdaşlıq edilərək bir sıra sosial xidmətlərin elektronlaşması istiqamətində işlər görülüb, fikir və təcrübə mübadiləsi aparılıb. "Yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin qəbuluna "Elektron Hökumət" portalı vasitəsilə yazılmaq və prosesin onlayn izlənilməsi" xidmətinin hazırda vətəndaşlar üçün daha çox aktual olduğu müəyyən edilib və bu xidmət tam şəkildə elektronlaşdırılaraq istifadəyə verilib.

**- Maarifləndirmə və kadr hazırlığı sistemi necə təkmilləşdirilir?**

- Ötən illə müqayisədə bu il "Elektron Hökumət" sahəsində maarifləndirmə xarakterli tədbirlərin, kursların, mühazirələrin, treninqlərin, müsabiqələrin və s. təşkil edilməsinə üstünlük verilib. Belə tədbirlərin sistemli, müntəzəm şəkildə təşkilində məqsəd cəmiyyətin bütün üzvlərinin "Elektron Hökumət" innovativ xidmət məkanından istifadəsini təmin etmək, ölkəmizdə hər gün dəyişən və inkişaf edən "Elektron Hökumət" quruculuğunda vətəndaşların aktiv iştirakına şərait yaratmaqdır. Artıq bir neçə ildir ki, Azərbaycanın ali təhsil müəssisələrinin müvafiq ixtisas üzrə təhsil alan tələbələri həmçinin dövlət xətti ilə xaricdə təhsil alan tələbələr yay istehsalat təcrübələrini müəssisəmizdə keçirlər. Həmçinin, bu il Azərbaycan Texniki Universiteti və RYTN Məlumat Hesablama Mərkəzinin nəzdində Elm-Təhsil və Texnologiyalar Birliyinin yaradılması qərara alınıb və bu barədə AzTU və "Elektron Hökumət" portalının operatoru arasında müqavilə imzalanıb. Elm-Təhsil və Texnologiyalar Birliyi çərçivəsində yeni tədris ilindən etibarən universitetdə elektron xidmətlər, elektron imza və geniş zolaqlı internet şəbəkələri üzrə laboratoriyaların fəaliyyətə başlaması nəzərdə tutulub. Bu laboratoriyalar tələbələrin İKT sahəsində aktual nəzəri və praktik bilik və bacarıqlarını artırmağa, kadrların hazırlanmasına və tələbələrin nəzəri biliklərinin təcrübədə tətbiq olunmasına imkan yaradacaq. "Elektron imza" laboratoriyalarında tələbələr elektron imzanın əldə olunması ilə bağlı sorğunun formalaşmasından onun son istifadəçiyə verilməsinə kimi bütün proseslərdə birbaşa iştirak edə biləcəklər. Elektron xidmətlər üzrə laboratoriyalarda tələbələr mobil proqram təminatlarının hazırlanması, elektron xidmətlərin formalaşması, onların "Elektron Hökumət" portalına inteqrasiyası ilə bağlı təcrübə qazana biləcəklər. Bu təcrübə gələcəkdə tələbələrə dövlət qurumlarında olduğu kimi, özəl müəssisələrdə də iş tapmağa imkan yaradacaq. Hazırda MHM tərəfindən laboratoriyaların texniki təşkilati işləri üzərində işlər yekunlaşmaq üzrədir. Artıq konkret laboratoriya dərsləri hazırlanıb. Bu laboratoriyaları uğurla başa vuran tələbələr universitetdən birbaşa "Elektron Hökumət" quruculuğunda iştirak etməyə hazır olacaqlar.

**- "Elektron Hökumət" layihəsinin davamlı inkişafı üçün hansı prioritet məsələlər müəyyənləşdirilib?**

- "Elektron Hökumət" portalı sadəcə 3 ildir fəaliyyətdədir və təbii ki, e-xidmətlərdən istifadə vərdişi vətəndaşlarda zamanla formalaşmaqdadır. "Elektron Hökumət" layihəsinin davamlı inkişafı üçün hazırda qarşıda duran və tam şəkildə həll edilməsi vacib olan bir sıra prioritet məsələlər var: Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli qərarı ilə təsdiq edilmiş "E-xidmətlərin siyahısı"na uyğun olaraq bütün qurumlar tərəfindən siyahıdakı xidmətlərin elektronlaşdırılması, mövcud texniki tələblərə uyğunlaşdırılması və portala inteqrasiyası; Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli qərarına uyğun olaraq siyahı üzrə "Elektron Hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının portala qoşulmasının və qurumlararası informasiya mübadiləsinin təmin edilməsi; dövlət və özəl qurumların mülkiyyətində olan informasiya ehtiyatlarının və sistemlərinin dövlət reyestrlərində qeydiyyatının tam təmin olunması və reyestrin tələblərinə uyğunlaşdırılması; qurumlar tərəfindən fərdi olmayan ictimai xarakterli məlumatların kompyuter tərəfindən oxunaqlı formata gətirilməsi və açıq hökumət məlumatları portalında (data.gov.az) yerləşdirilməsi; elektron arayışların çeşidinin artırılması və tətbiq sahələrinin genişləndirilməsi üçün lazımi tədbirlərin görülməsi; icra hakimiyyətləri və bələdiyyələr tərəfindən göstərilən bütün xidmətlərin elektronlaşdırılması və portala inteqrasiyası; elektron hökumət sahəsində maarifləndirmə xarakterli tədbirlərin, kursların, mühazirələrin, treninqlərin, müsabiqələrin və s. təşkili və genişləndirilməsi. Vətəndaşların irad, rəy və təkliflərinin öyrənilməsi və dəyərləndirilməsi.

Yeni mövsümdə daha çox istifadə olunan xidmətləri və xüsusən də, elektron arayışları özündə birləşdirən portalın mobil əlavələrinin istifadəyə verilməsini planlaşdırırıq. Yəni vətəndaşlarımız gündəlik həyatımızda daha çox istifadə etdiyimiz bir çox xidmətlərdən mobil qurğular vasitəsilə, rahat interfeysdən istifadə etməklə yararlana biləcəklər.

Son olaraq, bu gün "Elektron Hökumət" quruculuğu üzrə gördüyümüz hər mütərəqqi iş bizi bir addım daha irəli apararaq cəmiyyətmizin inkişafını təmin edir. Bu sahədə "Elektron Hökumət" portalının operaoru gələcəkdə də öz üzərinə düşən vəzifələrin tam şəkildə icrası üçün bütün səylərini səfərbər edəcəkdir.

# Ünvanlı dövlət sosial yardım sisteminin təkmilləşdirilməsi məqsədilə hazırlanan Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) üzrə işlər davam edir



Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, Mərkəzi Bankın Mərkəzləşdirilmiş Kredit Reyestri Xidməti və "Elektron Hökumət" portalı operatorunun nümayəndələri ilə birgə görüş keçirilmişdir. Görüşün mövzusu "Ünvanlı dövlət sosial yardım sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikasının prezidentinin 23 fevral 2015-ci il fərmanı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin (VEMTAS) fəaliyyətinin "Elektron Hökumət" portalı üzərindən təşkili ilə əlaqədar, MKR informasiya sisteminin portala qoşulması, müvafiq servisin hazırlanması məsələlərinin müzakirəsi olmuşdur.

**Bildiyiniz kimi, müvafiq fərmana uyğun olaraq,**

- vətəndaşlara ünvanlı dövlət sosial yardımın alınması üçün fərdi kommunikasiya vasitələrindən (kompüterlərdən, mobil telefonlardan və s.) istifadə etməklə elektron formada müraciət etmək imkanını yaratmaq məqsədilə "Elektron hökumət" portalına müvafiq informasiya-proqram resursları əlavə edilməli;
- eləcə də, ünvanlı dövlət sosial yardımı üçün müraciət etmiş şəxslər və onların ailə üzvləri üzrə tələb olunan arayış və məlumatların əldə olunması məqsədilə ƏƏSMN "Elektron Hökumət" portalı vasitəsilə müvafiq dövlət qurumlarının informasiya resurslarına çıxışını təmin etməlidir.

Tam olaraq 20 dövlət qurumunun mülkiyyətində olan informasiya sistemlərindən müxtəlif servislərin hazırlanaraq portala təqdim edilməsi nəzərdə tutulmuşdur. Artıq bir sıra dövlət qurumları tərəfindən informasiya sistemlərinin və müvafiq servislərin portala inteqrasiyası başa çatdırılmışdır. Cari görüşdə RYTN MHM, ƏƏSMN və MB MKR arasında "Elektron Hökumət" portalı vasitəsilə müvafiq informasiya resursuna çıxışın təmin edilməsi məsələsinin məqsədəuyğun təşkili üzrə müzakirələr aparıldı. Məsələnin hüquqi, texniki tərəfləri danışıldı.

Həmçinin, görüş zamanı ƏƏSMN nümayəndəsi tərəfindən vətəndaşlar tərəfindən ünvanlı dövlət sosial yardımının alınması üçün elektron formada müraciət (ərizə) göndərilməsi üçün proqram təminatının hazırlandığı və artıq test işlərinə başlanıldığı bildirildi.

VEMTAS istifadəyə verildikdən sonra istənilən vətəndaş ailəsinə ünvanlı dövlət sosial yardımı almaq üçün internet vasitəsilə elektron qaydada müraciət edə biləcək. Müraciət qəbul edildikdən sonra proqram təminatı tərəfindən təyin olunmuş qrafik əsasında müraciətin edildiyi ailənin maddi-məişət şəraitinin müayinəsini aparılacaq. Ailənin maddi-məişət şəraitinin müayinəsi təyin olunmuş müddət ərzində və müvafiq proqram təminatı ilə təchiz edilmiş xüsusi kompüter avadanlıqları vasitəsilə həyata keçiriləcək. Müayinənin nəticələri real vaxt rejimində VEMTAS-a ötürüləcək.

Eyni zamanda, ünvanlı dövlət sosial yardımı üçün edilən müraciətə baxılması üçün müvafiq məlumatların "Elektron Hökumət" portalı üzərindən aidiyyatı dövlət qurumlarının informasiya resurslarından real vaxt rejimində əldə edilməsi təmin olunacaq. Əldə olunan bütün məlumatlar ümumiləşdirildikdən və təhlil edildikdən sonra VEMTAS tərəfindən müraciət edən şəxsin ailəsinə ünvanlı dövlət sosial yardımının təyin olunub-olunmaması barədə qərar qəbul ediləcək. Vətəndaşın ailəsinə ünvanlı dövlət sosial yardımının təyin olunub-olunmaması barədə məlumat onun elektron ünvanına, yaxud mesaj formasında mobil telefon nömrəsinə göndəriləcək. Ailəsinə ünvanlı dövlət sosial yardımı təyin olunduğu halda yardımın ödənilməsi məqsədilə həmin şəxsə bank hesabının açılması üçün sistem tərəfindən müvafiq banka sifarişin göndərilməsi avtomatik şəraitdə həyata keçiriləcək. Bankın ünvanı və bank kartının hansı tarixdə təhvil götürülməli olduğu barədə məlumatlar ailəni təmsil edən şəxsin elektron ünvanına və yaxud mesaj formasında mobil telefonuna göndəriləcək.

Ünvanlı dövlət sosial yardımı sisteminin avtomatlaşdırılması innovativ texnologiyaların tətbiqi yolu ilə aztəminatlı ailələrin bu yardım sistemi üzrə çevik, rahat və şəffaf xidmətlərlə təmin olunmasına şərait yaradacaq.

# Məişət texnikasını "Baku Elektronics" dən kredit yolu ilə almaq üçün "Elektron Hökumət" portalından yararlana bilərsiniz

Elektron arayışların tətbiq sahəsi gündən-günə genişlənməkdədir. Artıq bir neçə müddətdir ki, "Baku Electronics" MMC ilə portalın operatoru arasında əməkdaşlıq qurulub və e-arayışların tətbiqi üçün test mühiti yaradılıb. Bu gündən isə sözügedən MMC -nin müştəriləri iş yerindən, yaşayış üzrə və digər lazımi arayışları portal üzərindən onlayn şəkildə formalaşdıraraq, kreditlərini rəsmiləşdirə biləcəklər. Qeyd edək ki, ilkin mərhələdə elektron arayışların tətbiqi şirkətin "Azadlıq", "İnşaatçılar", "Qara Qarayev", "Əhmədli" və "Sumqayıt" filiallarında nəzərdə tutulur.

www.e-gov.az

# "Dövlət qurumunda olan informasiya vətəndaşdan tələb olunmamalıdır"

Son zamanlarda ölkədə "Elektron Hökumət" quruculuğu istiqamətində görülən işlər kifayət qədər sürətlənib. Prezident İlham Əliyevin elektron sənədləşmə və kargüzarlıqla, elektron arayışlarla və elektron lisenziyalaşma ilə bağlı imzaladığı fərman və sərəncamlar da bu sahədə atılan ciddi addımlardan xəbər verir.

**Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz müsahibəsində bu istiqamətdə görülən işləri müsbət qiymətləndirərək bildirib ki, "Elektron Hökumət" quruculuğu istiqamətində son dövrlərdə xeyli işlər görülüb.**

O, xüsusən də son illərdə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Elektron Hökumət" portalının operatoru tərəfindən "Elektron Hökumət" quruculuğu istiqamətində keçirilən brifinqlərə, müxtəlif xidmətləri təqdim edən qurumların aidiyyatı mütəxəssisləri ilə keçirilən görüşlərə, dövlət informasiya sistemlərinin monitorinqlərə diqqət cəlb edib.

Ekspert bildirib ki, operator tərəfindən dövlət qurumlarının informasiya sistemlərinin, informasiya ehtiyatlarının monitorinqi, eyni zamanda elektron xidmətlərlə bağlı müxtəlif dövlət qurumlarının iştirakı ilə brifinqlərin, işgüzar görüşlərin təşkili, həmçinin, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Dövlət Agentliyinin elektron xidmətlərin keyfiyyəti ilə bağlı apardığı monitorinqlər elektron hökumət quruculuğu sahəsində işlərin daha da canlanmasına təkan verir.

Müsahib Prezidentin son günlərdə imzaladığı Fərmanla yaşayış yerindən arayış məsələsinin elektron formada hazırlanması və ASAN xidmətə verilməsini də yüksək qiymətləndirib:

- "Prezidentin dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində imzaladığı fərmana görə, ASAN xidmət bu arayışların elektron informasiya sistemindən istifadə edərək kağız formada dərhal verilməsini həll edəcək. Düşünürəm ki, mövcud idarəetmə sistemində hələlik bu kağız formaya ehtiyacımız var. Çünki bütün dövlət qurumlarının informasiya sistemlərinin qarşılıqlı inteqrasiya olunması prosesi hələ başa çatmayıb. Məncə, qurumların inteqrasiya məsələsi həll olunanadək kağız və elektron arayışların paralel fəaliyyət göstərməyi daha məqsədəuyğundur".

Osman Gündüz vətəndaşlarla bağlı məlumatların Daxili İşlər Nazirliyinin İAMAS informasiya sistemi vasitəsilə verildiyini bildirib. Həmçinin, gələcəkdə elektron arayışlar sisteminə keçirilməsinin də faydalı olacağını bildirib, MHM tərəfindən həm adı çəkilən İAMAS sistemindən, həm də digər dövlət qurumlarının informasiya sistemlərindən istifadə edərək xeyli sayda arayışların elektron formada əldə edilməsi imkanlarının da yaradıldığını diqqətə çatdırıb. Ekspert bununla belə bu arayışların bütün dövlət qurumları tərəfindən tanınması sahəsində problemlərin olduğunu da bildirib:

- "Son dövrlərdə Prezident fərmanı ilə təsdiq edilən kargüzarlıqla bağlı təlimat artıq bu cür informasiya sistemləri vasitəsilə elektron formada əldə olunan arayışları tanımağa imkan verir. Ümumiyyətə düşünürəm ki, yaxın gələcəkdə dövlət qurumlarında vətəndaşla bağlı olan istənilən informasiyanın vətəndaşın özündən tələb edilməsi praktikasına son qoyulmalıdır".

Hazırda bir sıra əhəmiyyətli xidmətlərin elektron formada əldə edilməsi imkanlarının olmadığını da diqqətə çatdıran ekspert xüsusilə də səhiyyə sahəsində, təhsil sahəsində, inzibati orqanların təqdim etdiyi xidmətlər sahəsində elektronlaşmaya daha ciddi ehtiyac duyulduğunu bildirir.

- "Təsəvvür edin ki, bu qədər işlərin qarşısında siz hələ də elektron formada həkim qəbuluna yazıla bilməzsiniz, uşaqların bağçalara qəbulu, növbəyə yazılma ilə bağlı vacib elektron xidmətlərdən yararlana bilməzsiniz, elektron imza olsa da elektron formada notarial xidmətlər yoxdur, ümumiyyətlə, elektron imzanın tətbiq dairəsi çox məhduddur, köhnədən qalma "etibarnamə-dovernost" məsələsi hələ də offlayn formadadır və s. Gərək dövlət qurumları bu istiqamətdə səylərini gücləndirsinlər, nəzarət artırılmalı, həmçinin də maliyyə təminatı yaradılmalıdır".

Bununla belə o, yaxın zamanlarda xidmətlərin elektron formaya keçirilməsi ilə bağlı vəziyyətin daha da yaxşılaşacağını qeyd edib. Forum rəhbəri VXSİ Dövlət Agentliyi yanında fəaliyyət göstərən Elektron xidmətlərin təşviqi üzrə İctimai Şura tərəfindən daha populyar və ictimi əhəmiyyət kəsb edən xidmətlərin siyahısının hazırlanaraq Dövlət Agentliyinə verildiyini bildirib. Osman Gündüz zaman-zaman bu xidmətlərin də elektron formaya keçirilməsinin zəruriliyi ilə bağlı hökumət tərəfindən müvafiq qərarların qəbul edildiyini diqqətə çatdırıb.

"Hazırda Prezidentin müvafiq fərmanına uyğun olaraq ASAN xidmət tərəfindən ölkədə mövcud olan bütün xidmətlərin vahid bir siyahısı- reyestri hazırlanır. Ümid edirəm ki, bundan sonra bu sahədə vəziyyət hədsiz dərəcədə şəffaf və bütün xidmətlərin əldə edilməsi daha çevik olacaq" – ekspert vurğulayıb.

Osman Gündüz müsahibəsində FİN (Fərdi İdentifikasiya Nömrəsi) ilə bağlı məqamlara da toxunub. O bildirib ki, Prezidentin son fərmanında FİN-lə bağlı müəyyən məsələlər də nəzərdə tutulub. Ekspertin sözlərinə görə, bundan sonra dövlət özəl qurumların informasiya sistemlərinin inteqrasiyası və FİN-ə uyğunlaşdırılması gücləndirilməlidir. Ekspert dövlət qurumlarının informasiya sistemlərinin FİN-ə uyğunlaşdırılmasının başa çatdırılmadığını qeyd edib:

- "MHM tərəfindən aparılan monitorinqlərin nəticələri və bizim apardığımız müşahidələr, araşdırmalarımız göstərir ki, bu istiqamətdə hələlik görüləcək işlər daha çoxdur".

Müsahib hazırda ölkədə elektron hökumət quruculuğunun texniki – texnoloji təminatının gücləndiyini, infrastruktur işlərinin daha irəlidə olduğunu diqqətə çatdırıb.

O, bununla belə "Elektron Hökumət" quruculuğunda tənzimləmə, hüquqi təminat məsələsinə xüsusi diqqət yetirilməsinə, xidmətlərin daha çevik və effektiv formada əldə edilməsi imkanlarının yaradılmasına və bu məqsəd üçün nəzərdə tutulan maliyyə təminatının gücləndirilməsinə, mobil tətbiqlərin yaradılmasına, dövlətə məxsus açıq məlumat bazalarının sayının artırılaraq Portalda yerləşdirilməsinə ehtiyac olduğunu bildirib.

# "Elektron Hökumət" portalında pensiyaçılar üçün hansı xidmətlər mövcuddur?

2006-cı ildən etibarən ölkəmizdə əmək pensiyasının - baza, sığorta və yığım hissələrindən ibarət üçpilləli sistem işə salınaraq pensiya məsələləri vahid mərkəzdə - Dövlət Sosial Müdafiə Fondunda cəmləşdirilib.

2012-ci ildə "Elektron Hökumət" portalının istifadəyə verilməsi ilə bütün xidmətlər kimi pensiya məsələləri ilə bağlı xidmətlərin elektron mühitdən "bir pəncərə" prinsipi əsasında vətəndaşlara çatdırılması üzərində işlənilmiş və hazırda, aidiyyatı qurumun 12 elektron xidməti portal vasitəsilə vətəndaşlara açıq edilmişdir.

Pensiya-sığorta ilə bağlı xidmətlərin avtomatlaşdırılması və "Elektron Hökumət" prinsiplərinə uyğun təmin edilməsi bu sahədə bürokratik əngəllərin aradan qaldırılmasına, işin keyfiyyətinin və şəffaflığının artırılmasına zəmin yaradır. Həmçinin, pensiya ilə bağlı xidmətlərin açıq edilməsi, vətəndaş-məmur qarşılıqlı münasibətlərini minimuma endirərək vətəndaşlarda yerli idarəetmə orqanlarına inamı artırır və gələcəyin pensiyaçılarını demotivasiya edəcək problemləri aradan qaldırır.

Hazırda, "Elektron Hökumət" portalı üzərindən pensiya-sığorta məsələləri üzrə aşağıdakı elektron xidmətlər aktiv istifadə olunmaqdadır:

- **Pensiya kalkulyatoru,**
- **Pensiya təyinatı və pensiya növünün dəyişdirilməsi üçün müraciətin və sənədlərin qəbulu,**
- **Pensiyaçıya məlumatların verilməsi,**
- **Sığortaolunanın onlayn uçota alınması,**
- **Sığortaolunanlara məlumatların verilməsi,**
- **Sığortaedənin uçot nömrəsinin öyrənilməsi,**

Sığorta-pensiya məsələləri ilə bağlı 01.01.2015-01.08.2015-ci illərin statistik göstəricilərə nəzər saldıqda,

| | İstifadəçi sayı | İstifadə sayı |
|---|---|---|
| Pensiyaçıya məlumatların verilməsi | 9 466 | 16 608 |
| Sığortaolunanın onlayn uçota alınması | 24 054 | 142 356 |
| Pensiya təyinatı və pensiya növünün dəyişdirilməsi üçün müraciətlərin və sənədlərin qəbulu | 2 276 | 3 307 |
| Sığortaolunanlara məlumatların verilməsi | 16 447 | 67 464 |
| Pensiya kalkulyatoru | 10 111 | 23 036 |
| Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | 6 242 | 44 424 |

sığorta-pensiya modelinin "Elektron Hökumət" prinsipi üzrə uğurla fəaliyyət göstərdiyinin və pensiyaçılara şəffaf pensiya təminatı verdiyinin bir daha şahidi oluruq.

# Xaricdə təhsil alan tələbələrimiz Azərbaycanın "Elektron Hökumət" modeli barədə diplom işi yazırlar



Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na uyğun olaraq çox sayda Azərbaycan gəncləri xarici ölkələrdə təhsil alırlar. Təhsil müddəti başa çatdıqdan sonra dünyanın müxtəlif ölkələrinin ən nüfuzlu univerisitetlərində dövlət hesabına təhsil alan bu gənclər yüksək ixtisaslı mütəxəsis kimi ölkəmizdə fəaliyyət göstərəcəklər və ölkənin hər bir sahədə inkişafına öz töhfələrini verəcəklər. Elə bu məqsədlə də tələbələr öz ixtisaslarına, maraq dairələrinə uyğun olaraq yay istehsalat təcrübəsini keçmək üçün müvafiq qurumlara üz tuturlar və "Elektron Hökumət" portalının operatoru olan RYTN MHM-də təcrübə keçən yerli tələbələrlə yanaşı, xaricdə təhsil alan tələbələrimiz də var.

Respublikamız üçün həm ictimai, həm də iqtisadi əhəmiyyət daşıyan elektronlaşma dinamik şəkildə inkşaf edir və bu sahə daima ölkə rəhbərliyinin diqqətindədir. Bu da bir faktdır ki, ölkənin sürətli elektronlaşması üçün İKT sahəsində yüksək ixtisaslı mütəxəssislərlə yanaşı, vətəndaşların da bu sahədə kifayət qədər savadlı və aktiv olması vacibdir. Bu məqsədlə də ölkəmizdə və xaricdə bu sahə ürzə yüksək ixtisaslı kadrların hazırlığına başlanılıb. Bu sahəyə yüksək texniki bilik və bacarıqları olan mütəxəssislərlə yanaşı savadlı menecerlər, elektron hökumətin fəaliyyətinə dair plan və konsepsiyalar hazırlaya bilən, qərar qəbuletmə üçün geniş biliklərə və kreativ düşüncəyə malik gənclər yetişir. Eyni zamanda fəaliyyət göstərən bir sıra təlim mərkəzləri ilə strateji əməkdaşlıqlar inkşaf etdirilir.

Sevindirici haldır ki, xaricdə təhsil alan bir sıra tələbələrimiz dünyada və Azərbaycanda "Elektron Hökuməti"lə bağlı araşdırmalar aparıb və bu araşdırmalarının nəticəsi olaraq bir neçə tələbə Azərbaycanın "Elektron Hökumət" modeli barədə diplom işi yazırlar. Əlbəttə, "Elektron Hökumət" portalının operatoru olaraq, tələbələrin bu təşəbbüsü yüksək qiymətləndirilib və Azərbaycanın "Elektron Hökumət" modeli ilə bağlı tələbələrin cavab almaq istədikləri bütün suallar ətraflı cavablandırıb və onlara lazımi məlumatlar verilib.

Ölkəmizdə "Elektron Hökumət" portalını dinamik inkişaf etdirmək, qurumlar tərəfindən göstərilən bütün xidmətlərin elektronlaşdırılması və onlardan istifadənin daha da asanlaşdırılması, hüquqi bazanın təkmilləşdirilməsi, informasiya təhlükəsizliyini möhkəmləndirmək, vahid informasiya fəzası yaratmaq, dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinə və şəffaflığına nail olmaq, bürokratik halları aradan qaldırmaqla "hökumət-vətəndaş" münasibətlərini yeni müstəviyə keçirib, vətəndaş məmnunluğunu təmin etmək hazırda qarşıda duran əsas vəzifələrdəndir.

İnanırıq ki, "Elektron Hökumət" layihəsinin davamlı inkişafı üçün qarşıda duran və həll edilməsi vacib olan bir çox prioritet məsələlərdə xaricdə təhsil alan tələbələrimizin də böyük xidmətləri olacaq.

www.e-gov.az

## 01.08.2015 – 31.08.2015-ci il dövrü ərzində "Elektron Hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu | TQDK | 263732 |
| 2 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 189698 |
| 3 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | ƏƏSMN | 91250 |
| 4 | Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi | RYTN | 79066 |
| 5 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 78211 |
| 6 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 66694 |
| 7 | Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər) ərizələrinin onlayn qəbulu | TQDK | 58831 |
| 8 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 52366 |
| 9 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 49469 |
| 10 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 40063 |
| 11 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 37110 |
| 12 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | ƏƏSMN | 36416 |
| 13 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Arayışlar | 26876 |
| 14 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 23175 |
| 15 | İş yerinə dair arayış | ƏƏSMN | 21966 |
| 16 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 19884 |
| 17 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 14490 |
| 18 | Vətəndaşa aid fərdi məlumatlar üzrə arayış | Elektron Arayışlar | 13415 |
| 19 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 7494 |
| 20 | TQDK-nın virtual ödəmə kartlarının onlayn və qısa mesaj (SMS) vasitəsilə satışı | TQDK | 5607 |

## 01.09.2015-ci il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 82 | 169 | 251 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.08.2015 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 21795 | 6385 | 7735 | 35915 |

## 2015-ci ilin avqust ayı ərzində bütün qurumlar üzrə "Elektron Hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 15 | 524303 |
| 2 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 44 | 277996 |
| 3 | Dövlət Sosial Müdafiə Fondu | 18 | 215419 |
| 4 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 7 | 151946 |
| 5 | Elektron Arayışlar | 13 | 49886 |
| 6 | Daxili İşlər Nazirliyi | 3 | 4114 |
| 7 | Təhsil Nazirliyi | 5 | 1855 |
| 8 | "Azərişıq" ASC | 1 | 1399 |
| 9 | "Azərsu" ASC | 4 | 1328 |
| 10 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 5 | 1225 |
| 11 | Mərkəzi Seçki Komissiyası | 7 | 1208 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 4 | 991 |
| 13 | Dövlət Gömrük Komitəsi | 6 | 869 |
| 14 | Əmlak Məsələləri Dövlət Komitəsi | 4 | 697 |
| 15 | Səhiyyə Nazirliyi | 6 | 504 |
| 16 | Milli Arxiv İdarəsi | 2 | 440 |
| 17 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 331 |
| 18 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 295 |
| 19 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 285 |
| 20 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 270 |
| 21 | Ədliyyə Nazirliyi | 2 | 268 |
| 22 | "AzərEnerji" ASC | 1 | 190 |
| 23 | Dövlət Statistika Komitəsi | 4 | 186 |
| 24 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1 | 139 |
| 25 | Vergilər Nazirliyi | 6 | 126 |
| 26 | Nəqliyyat Nazirliyi | 4 | 119 |
| 27 | Fövqəladə Hallar Nazirliyi | 3 | 98 |
| 28 | Baş Prokurorluq | 1 | 70 |
| 29 | Dövlət Sərhəd Xidməti | 2 | 64 |
| 30 | Dövlət Miqrasiya Xidməti | 1 | 60 |
| 31 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 47 |
| 32 | Kənd Təsərrüfatı Nazirliyi | 14 | 44 |
| 33 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 42 |
| 34 | Dövlət Dəniz Administrasiyası | 14 | 40 |
| 35 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 38 |
| 36 | Xarici İşlər Nazirliyi | 1 | 36 |
| 37 | İqtisadiyyat və Sənaye Nazirliyi | 1 | 34 |
| 38 | Müəllif Hüquqları Agentliyi | 5 | 34 |
| 39 | Gənclər və İdman Nazirliyi | 4 | 33 |
| 40 | Energetika Nazirliyi | 5 | 32 |
| 41 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 9 | 15 |
| 42 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 12 |
| 43 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 12 |
| | **CƏMİ** | **258** | **1237100** |

www.e-gov.az

## "E-hökumət" portalında olan e-xidmətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş siyahı ilə

# MÜQAYİSƏLİ TƏHLİLİ

*01.09.2015*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 26 | 1 | 3 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 25 | 17 | 17 | 16 | 14 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 8 | 11 | 5 |
| 7 | Vergilər Nazirliyi | 62 | 57 | 59 | 60 | 58 |
| 8 | Energetika Nazirliyi | 8 | 5 | 5 | 5 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 15 | 10 | 12 | 15 | 14 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 15 | 14 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 24 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 1 | 1 | 6 | 3 |
| 13 | Təhsil Nazirliyi | 8 | 4 | 6 | 16 | 5 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 32 | 33 | 30 | 30 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 16 | 35 | 26 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 3 | 6 | 14 | 11 |
| 23 | Əmlak Məsələləri Dövlət Komitəsi | 29 | 27 | 31 | 31 | 26 |
| 24 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 25 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 26 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 6 | 6 |
| 27 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 28 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 29 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 30 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 31 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 14 | 15 | 14 | 14 |
| 32 | Dövlət Miqrasiya Xidməti | 11 | 10 | 10 | 11 | 11 |
| 33 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 34 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 4 | 4 | 5 | 5 |
| 35 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 8 | 3 | 2 |
| 38 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 39 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 40 | Dövlət Dəniz Administrasiyası | 19 | 18 | 18 | 18 | 18 |
| 41 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **455** | **335** | **387** | **467** | **398** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | | | 2 | 2 | |
| 2 | "Azərsu" ASC | | | 3 | 5 | |
| 3 | "Azərenerji" ASC | | | 1 | 1 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | | | 6 | 7 | |
| 5 | Baş Prokurorluq | | | 1 | 1 | |
| 6 | Biləsuvar Rayon İcra Hakimiyyəti | | | 1 | 1 | |
| 7 | "Azərişıq" ASC | | | 2 | 2 | |
| 8 | Elektron Arayışlar | | | 6 | | |
| | **CƏMİ:** | | | **22** | **20** | |
| | **YEKUN** | **455** | **335** | **409** | **487** | **398** |

# “Elektron Hökumət” portalına daxil olanların sayı 2 432 598 nəfərə çatdı




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) “Elektron Hökumət” portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2015-ci ilin avqust ayının 31-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 8,830,631 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 2,432,598 nəfər olub. Belə ki, 2,432,598 nəfər ümumən 8,830,631 dəfə portala baxıb və 15,410,364 dəfə elektron xidmətlərə müraciət ediblər. Həmin şəxslər 30,293,235 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 21 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 27.6%-ni yeni istifadəçilər, 72.4%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Avqust ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 625,695 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 212,317 nəfər olub. Həmin şəxslər 1,965,445 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 1,237,100 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 34 saniyə təşkil edib. Avqust ayı ərzində portala müraciət edənlərin 21.1%-ni yeni istifadəçilər, 78.9%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 298,417-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 409 olub.




© 2015 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Nəsimi r-nu, Dilarə Əliyeva küç., 185
Tel.: 157; Email: office@rabita.az